VƏTƏNDAŞ
33(174) 18 - 24 avqust 2002-ci il

# BƏXTİYAR VAHABZADƏ ~ 77

# BÜTÜN TÜRK DÜNYASINDA TANINAN VƏ SEVİLƏN ŞAİRİMİZ



**Hörmətli Bəxtiyar müəllim!**

Siz bu xalqın taleyinə, ruhuna, böyük mənəviyyatına doğulmuş adamsınız. Sizin adınızla Azərbaycanın keçən yüz ildəki ədəbiyyatının, xüsusi ilə də şerimizin, az qala 50 illik taleyi, tarixi bağlıdır. Siz Stalin dövründən sonra Stalin rejiminin xofunun dağılmasında, şerimizin öz minillik ənənəsinə qayıdaraq, millətin ruhunun, ideallarının, mübarizə eşqinin bir əks-sədasına çevrilməkdə çox böyük iş görmüsünüz. Sizə qədərki ədəbiyyatımızda da millətin azadlıq ruhu gizli şəkildə çox çətinliklərlə də olsa, yaşayıb. Amma poeziyamızın qollarına vurulan Sovet ideologiyası qandallarının qırılıb atılmasında Sizin sözünüzün, özünüzün, keçdiyiniz yolun çox böyük əhəmiyyəti olub.

Bizim - bir neçə nəsil azərbaycanlının təfəkküründə Bəxtiyar Vahabzadə şeri Azərbaycanın azadlığının, bütövlüyünün, mübarizə eşqinin simvolu kimi yaşayır. Güneydə Şəhriyar, Quzeydə Bəxtiyar bu millətin iki qanadı olaraq, Vətənimizin, dilimizin, ruhumuzun keşikçisi kimi, bütün illər ərzində bu xəttin inkişafı yolunda mübarizə aparıb. Şəhriyarla Bəxtiyar bu mənada bir-birini tamamlayıblar, biri Güneyin səsi olub, o biri Quzeyin. O səslər birləşəndə, Azərbaycan da birləşib. O səslər birləşəndə bəlli olub ki, siyasi iddialar, imperiya iddiaları bu ölkəni nə qədər parçalasa da, onun ruhunu heç vaxt parçalaya bilməyib.

Ədəbiyyatımızda və ictimai şüurumuzda çox böyük xidmətləriniz var. Hələ "Gülüstan" poemasından başlayaraq, Sizin onlarla kitabınız milli şüur və milli təfəkkür məktəbi olub. Bu məktəbdən nəsil-nəsil azərbaycanlılar keçib. O cümlədən biz, mən də daxil olmaqla, bizim nəsil, bəzilərimiz birbaşa, qalanlarımız isə mənəvi tələbələriniz olmuşuq. Bugünkü ədəbiyyatımızda da Sizin belə tələbələriniz çoxdur. Universitetdə oxuyarkən mənə dərs demisiniz və o vaxtdan başlayaraq, həm də şəxsi dostumsunuz. Bu dostluq çox böyük sınaqlardan keçib. Mən ömrüm boyu bu dostluqla fəxr eləmişəm. Mən həmişə fəxr eləmişəm ki, bu cəmiyyətin atdığı addımlar, oynadığı oyunlar qarşısında müxtəlif böhtanlar, hiylələr, riyakarlıqlar qarşısında sınmayan, heç bir hakimiyyət oyunlarının, hakimiyyət iddialarının, hakimiyyət qurğularının qurbanı olmayan, həmişə bu qurğulardan üzüağ çıxan bir Bəxtiyar Vahabzadəmiz var. Mən Sizin haqqınızda fikirlərimi, duyğularımı dəfələrlə yazmışam, demişəm, kitabınıza da ön söz yazmışam. Sizə atılan böhtanlarla, Sizə vurulan yaralarla bağlı, haqqınızda "Millətin əsəb nöqtəsi" adlı geniş bir yazım çıxıb. Mən doğrudan da Sizi millətimizin əsəb nöqtələrindən biri sayıram və hesab edirəm ki, bu nöqtəyə toxunmaq olmaz. Bu nöqtə, Sizin yaradıcılığınız artıq toxunulmaz bir səviyyədədir. Hər şeyi çək-çevirə salmaq olar, hər şey haqqında danışmaq olar, amma Bəxtiyar Vahabzadənin Azərbaycan ədəbiyyatındakı, Azərbaycan ictimai fikrindəki, təfəkküründəki rolunu, yerini heç vaxt kiçiltmək, çək-çevirə salmaq olmaz.

Siz təkcə Azərbaycanda yox, bütün türk dünyasında tanınan və sevilən şairimizsiniz. Mən bunu mübaliğəsiz deyirəm ki, Türkiyədə öz şairlərini bəlkə də Sizin qədər tanımırlar. Bəlkə Sizin şerlərinizin təsiri qədər orada bu gün yazan şairlərin şerlərinin təsiri yoxdur. Təkcə Türkiyədə yox, bütün türk dünyasında sevilirsiniz, oxunursunuz.

Vaxtilə köhnə SSRİ məkanında Sizin kitablarınız rus dilinə tərcümə olunaraq, geniş yayılmışdı. Pyesləriniz bu gün Azərbaycanın teatr səhnələrini bəzəyir. Mən çox sevinirəm ki, Siz bu yaşınızda Azərbaycanın ictimai-siyasi həyatında həmişə fəal mövqedəsiniz. 1988-ci ildən başlayan Xalq Hərəkatında, sonra Milli Azadlıq Hərəkatında, millətin həmişə arzuladığı, əlində kürsülərə qaldırdığı, sözünə heyranlıqla qulaq asdığı ziyalılarımızdan birisiniz. Millət sizə həmişə inanıb, indi də inanır və bilir ki, Siz həmişə haqlısınız, haqq yolundasınız. Siz bu mübarizənin öncüllərindən biri kimi, həm də Milli Məclisimizdə uzun illərdir ki, xalqın əsl elçisi kimi onun haqq sözünü deyən, ictimai-siyasi xadimi kimi fəaliyyət göstərirsiniz.

Azərbaycan ədəbiyyatının və şerinin - 1300 illik Oğuz şerinin kontekstində götürəndə belə, Bəxtiyar Vahabzadə yaradıcılığını bu şerin uca zirvələrindən biri kimi görürəm. O zirvəni bu gün qar alır. O zirvə bu gün duman içindədir. Amma o zirvədən indi də, bundan sonra da əbədi olaraq bizim ruhumuzun, ürəyimizin genişliklərinə həyat suyu axacaq, Azərbaycanın ədəbi sözünün doğurduğu, böyük türk sözünün doğurduğu dünyada yaşayacaqsınız.

Sizi doğum gününüz münasibəti ilə ürəkdən təbrik edirəm! Sizinlə yaxın olan bir adam kimi, Sizin bu gün də millətin qayğıları ilə, dərdləri ilə yaşadığınızı bilirəm. Hər gün onlarla məktub aldığınızı, hər gün camaatın dərdi ilə bağlı onlarla yerə müraciət etdiyinizi də bilirəm. Mən bilirəm ki, Siz səbrli adamsınız, amma millətin taleyi ilə bağlı prinsipial məsələlərdə heç vaxt heç kimə güzəştə getməmisiniz və bundan sonra da getməyəcəksiniz.

Bəxtiyar yolu Şəhriyar yolu kimi Azərbaycan şerinin ədəbiyyat və əbədiyyat yollarına qovuşub, həmişə bizim mənəviyyat dünyamızda var olacaq. Ömrünüz uzun, canınız sağ olsun! Yenə həmişəki kimi təpərli olun! Sizə uğurlar arzulayıram!

***Hörmətlə: Sabir Rüstəmxanlı***

***Vətəndaş Həmrəyliyi Partiyasının sədri, millət vəkili***